AZƏRBAYCAN RESPUBLİKASI

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ adına RESPUBLİKA UŞAQ KİTABXANASI



**1 iyun Beynəlxalq Uşaqları Müdafiə Günü münasibətilə**

# "Bir ovuc təbəssüm, bir dünya işıq..."

**(metodiki vəsait)**

**B A K I – 2015**

# Tərtibçidən



Bu gün iyunun 1-dir. Bu tarix bütün dünyada uşaqların müdafiəsi günü kimi qeyd edilir. Əsas məqsədi dünya ictimaiyyətinin diqqətini uşaqların müharibə təhlükəsindən qorunmasına, saglamlıqlarının mühafizəsinə, onların təhsil və tərbiyyəsinin demokratik ənənələr əsasında qurulmasına yönəltməkdə olan bu əlamətdar tarix 1949-cu ildən başlayır. Həmin il qadınların beynəlxalq demokratik fedarasiyasının Moskvada keçirilən növbəti sessiyasında 1 iyunun Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd edilməsi qərara alınıb və o vaxtdan da hər il geniş qeyd edilir. Bu günü uşaq bayramı da adlandırırlar. Biz də bu bayram münasibətilə istər respublikamızda, istərsə də bütün dünyada yaşayan uşaqları təbrik edir, onlara məşhur mahnıda deyildiyi kimi, aydın səma, parlaq günəş və bol-bol sevinc arzulayırıq. Qoy səhərlərimiz atəş səsləriylə deyil, körpə gülüşləriylə açılsın. Körpə gülüşü dünyanın sevinc himninə çevrilsin!

**B Ö L M Ə I:**

## BİR OVUC TƏBƏSSÜM, BİR DÜNYA İŞIQ...

**Uşaqlar cəmiyyətin ən gözəl hissəsidir. Hər bir insan, hər ana, hər ata öz xoşbəxtliyini, birinci növbədə, öz uşağında, öz övladında görür. Ailədə yeni uşağın dünyaya gəlməsi ailə üçün bütün sevinclərdən üstündür, bu təbiidir, çünki insan yaşayır, yaradır və cəmiyyətin gələcəyini yaradır. Mənim üçün hər bir ailədə uşağın dünyaya gəlməsi və bu ailənin sevinci elə mənim sevincimdir. Mənim üçün hər bir uşağın həyatı bizim ümumi cəmiyyətin həyatıdır.** **Heydər Əliyev**

**Ulu öndər**

Əgər bu dünyanın ələyindən keçməmiş, boyagı ilə rəngdən-rəngə düşməmiş saflığı, təmizliyi, həqiqəti görmək istəyirsinizsə korpə gözlərinə baxın. Dünya boyda işıq var o gözlərdə. Ömründən keçəcək hər günün, hər ilin, zərrə-zərrə, damla-damla oğurlayacağı işıq...

Tanrı sanki insanlığı xilas etmək üçün kiçik "mələkləri" körpələri göndərir yer üzünə. Göndərir ki, körpə çöhrəsindən süzülən saflıq əridib yox etsin dünyanın günahlarını. Amma təəssüf ki, qoca dünya günahını çox vaxt körpə gözlərindən axan yaşla "yumaq" istəyir. Qayğısız, xoşbəxt gülüşləriylə dünyanın dodağında təbəssüm olmağa gələn uşaqlar bəzən mənasız çəkişmələrin, amansız müharibələrin qurbanı olurlar. Dünyanın bir çox yerlərində alovlanan müharibə ocaqları minlərlə korpənin ölümünə, şikəst və sahibsiz qalmasına səbəb olub. Saf, kövrək körpə qəlbləri, taleləri çilik-çilik olub insanlığa yeni günahlar qazandırır. Və nəhayət Dünya əsrlərdən bəri törətdiyi cinayətlərin məhkəmə çağrışını alır. Suriyalı bir uşağın dilindən: "Hər şeyi Allaha deyəcəm" demişdi gülmək üçün gəldiyi həyatdan ağlayaraq gedərkən.

Erməni qəsbkarlarının Azərbaycan torpaqlarına ərazi iddiyasiyla törətdikləri qətliamlar vaxtilə yüzlərlə körpəmizi də açılmamış qönçə kimi soldurdu. Yüzlərlə uşaq valideyinsiz qaldı, talelərinə istər fiziki, istərsə də mənəvi cəhətdən şikəstlik damğası vuruldu. Dövlətimizin qayğısı nə qədər yaralarına məlhəm olsa da, bu şikəstliyi daşımaqdan tamamilə qurtula bilmədilər. Bəziləri ana nəvazişinin, bəziləri ata güvəncinin nə olduğunu unutdu. Və beləcə ürəklərində nisgil, gözlərində nifrətlə böyüdülər.

Dövlətimiz hər zaman öz qayğısını uşaqlardan əsirgəməmiş, körpələrin azad, firavan yaşaması üçün həmişə zəruri addımlar atılmışdır. Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan

Respublikasının Konstitusiyası və bir sıra qanunverici və normativ-hüquqi aktlarla təmzimlənir.Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunudur. Bu qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də “insan hüquqları haqqında” Ümumdünya Bəyannaməsi, BMT-nin Uşaq hüquqları konvensiyası, Uşaqların yaşaması, müdafiəsi, və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə uyğun şəkildə hazırlanmış və uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir.

Bu gün Azərbaycan Respublikasında uşaq siyasətinin həyata keçirilməsinə məsul əsas mərkəzi icra hakimiyyəti orqanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Komitə Azərbaycan Respublikasının Prezidentinin 6 fevral 2006-cı il tarixli fərmanı ilə yaradılmışdır və ailə, qadın və uşaq problemleri ilə iş sahəsində dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirən dövlət orqanıdır.

Ölkəmizdə uşaq hüquqlarının müdafiəsi məqsədilə hökumət ilk növbədə uşaqların sosial müdafiəsinə yönəlmiş mühüm addımlar atmışdır. Uşaqların sosial müdafiəsi, onların təhsil və səhiyyə sahəsindəki hüquqlarının həyata keçirilməsi “Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Strategiyası (2003-2005) nda öz əksini tapmışdır. Bu istiqamətdə başlanan işlərin 2006-2015-ci illəri əhatə edən “Yoxsullugun Azaldılması və Sosial İnkişaf üzrə dövlət Proqramı çərçivəsində davam etdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Hökuməti ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların dəstəyi ilə kövrək qruplara aid olan valideyn himayəsindən məhrum olmuş uşaqların, küçə uşaqlarının, Ermənistanın Azərbaycana qarşı təcavüzünün qurbanları olan qaçqın və məcburi köçkün uşaqların problemlərinin həll edilməsi istiqamətində mühüm tədbirlər görmüşdür. Valideyn himayəsindən məhrum olmuş uşaqların təhsil aldığı müddətdə müdafiəsini təmin etmək üçün, Azərbaycan Respublikasının “Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Qanunu qəbul edilmişdir. Belə uşaqların müdafiəsi istiqamətində atılmış ən mühüm addımlardan biri də “De-institusionalizasiya və ya alternativ qayğı üzrə Dövlət Proqramının” qəbul edilməsi olmuşdur.

Qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün son 15 il ərzində Azərbaycan Respublikası Prezidenti tərəfindən bir çox fərman və sərəncamlar imzalanmışdır. 1998-ci ildə qaçqınların və məcburi köşkünlərin mövcud vəziyyətini yaxşılaşdırmaq, onların sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən “Qaçqınlar

və və məcburi köşkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramı təsdiq edilmişdir. Son illərdə ölkəmizdə şikəst uşaqların və onların ailələrinin maraqları çərçivəsində fəaliyyət göstərən təşkilatların əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunur. Müxtəlif profilli 10-a yaxın mərkəz bu kateqoriyadan olan uşaqlara reabilitasiya xidmətləri göstərir. Bunların sırasında daun və autist uşaqların kukla teatrını göstərmək olar.

Ölkə hökuməti tərəfindən həmçinin xüsusi istedada malik olan uşaqların müdafiəsi istiqamətində də mühüm addımlar atılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 4 avqust 2000-ci il tarixində təsdiq edilmiş "İstedadlı və yaradıcı uşaqların və gənclərin sosial və iqtisadi problemlərinin həllinə və onların qabiliyyətlərinin inkişafına yönəlmiş Dövlət Proqramı" uşaq və gənclərin yaradıcı potensialının inkişafına əhəmiyyətli təsir göstərərək gənclərin məşğulluq və işədüzəlmə probleminin həllini təşviq etmişdir. Bu sahədə atılan digər mühüm addım 2006-cı il aprelin 17-də "Xüsusu istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010)"nın qəbul edilməsi olmuşdur.

Azərbaycan Respublikası Uşaq hüquqlarının müdafiəsi sahəsində bir sıra bəynəlxalq təşkilatlarla, xüsusilə də BMT-nin Uşaq Fondu-UNİ-CEF-lə sıx əməkdaşlıq edir.

Uşaqların yaşamaq hüququnun pozulmaması üçün bütün dünyada müxtəlif tədbirlər keçirilir, qanunlar qəbul edilir.

Amma təəssüf ki, bütün bunlar tanrının bizlərə əmanəti olan körpələrin gülüşünü qorumağa yetmir. Görünür, bunun üçün müxtəlif layihələr hazırlamaq, ixtiralar etmək üçün yalnız ağlımızı səfərbər etməyimiz kifayət deyil, qoca dünyanın kiri-pasıyla dumanlanmış qəlbimizi oyandırmağı bacarmalıyıq ilk növbədə. Bunu özümüz üçün eləməliyik. Eləməliyik ki, sabahımızın xilaskarları dünyamızı Allaha şikayət etməsinlər. Allah "mələklərin" göz yaşına dözməz. Və bir daha göndərməz onları dünyamıza. Dünyamız gülüşsüz və işıqsız qalar...

## B Ö L M Ə II:

## DÜNYANI VERDİK UŞAQLARA...



**Uşaqlar istər öz valideynləri, nənə-babaları, doğmaları, istərsə də ətraf mühitdə yaşayan digər insanlar, xüsusən böyüklər üçün həmişə sevinc mənbəyidir. Uşağın doğması-yadı yoxdur. Tanımadığın birisinin balasını da öz balan, öz körpən kimi sevə, əzizləyə bilirsən. Səbəbi də məlumdur. Təbii ki, uşaq məsumdur, müqəddəsdir, pakdır və təmizdir. Uşaq sevincdir, xoşbəxtlikdir. Üz-gözündən sadəlik, səmimilik, mehribanlıq, xoşbəxtlik yağan, Allahın ən ali yaradılışını necə sevməmək olar? Bəlkə də ona görədir ki, Məhəmməd Peyğəmbər də evdə hamıdan böyük, hamıdan səlahiyyətli qismində məhz uşaqları görürdü. İmam Əli deyirdi ki, başqasının uşağını xoşbəxt görmək istəyən öz balası üçün xöşbəxtliyi təmin etmiş olur.**

Müqəddəs analarımız laylalarında, oxşamalarında körpələrini dünyanın ən müqəddəs varlığı kimi əzizləyir, onları ən müqəddəs sözlərlə mədh edirlər.

**Laylay, beşiyim, laylay,**

**Evim-eşiyim, laylay.**

**Sən yat şirin yuxuda,**

**Çəkim keşiyin laylay!..**

Bu gün dünyamız ziddiyyətlərlə, münaqişələrlə, ictimai-siyasi kataklizmlərlə doludur. Dünyanın münaqişəli zonalarında böyüklərlə bərabər uşaqların da həlak olması barədə, demək olar ki, hər gün xəbərlər alırıq. Bir neçə il bundan qabaq Suriyanın Hule qəsəbəsində kimlərinsə evlərə girərək valideynləri və onlarla bərabər uşaqları güllədən keçirməsi, demək olar ki, bütün dünyanı ayağa qaldırdı. BMT təcili müzakirələr keçirdi. Bəşər Əsədə qarşı ən sərt təzyiqlər başlandı. Suriyanın bütün Avropa ölkələrindəki səfirləri xidmət yerlərindən qovuldu. Və bu

qəddarlığın bütün məsuliyyəti Suriyanın dövlət başçısı Əsədin üzərinə qoyuldu. Baş vermiş hər bir hadisədə günahkarların tapılıb cəzalandırılması tələb olundu. Əlbətdə, uşaqlara qarşı törədilən hər bir qəddarlıq həmişə pislənmiş və pislənilməlidir.

Yenə də bir faktı nəzərinizə çatdıraq ki, bir neçə il bundan qabaq Norveçdə Breyvik familiyalı bir qəddar dünyanın müxtəlif ölkələrindən, müxtəlif millətlərdən olan uşaqları gülləboran etmiş, necə deyərlər, beynəlmiləl bir qətlin icraçısı olmuşdu. O da öz cəzasını çəkməkdədir. Bu cür cinayətləri, uşaqlara qarşı bu qəddarlığı nə dünya qanunları, nə də Allah bağışlayır.

Amma bu cür faktların çoxluğuna baxmayaraq, həyat davam edir, hər gün dünyaya korpələr gəlir. Son 20 ildə tarixin ən amansız sınağından çıxmış Azərbaycanda da işıqlı-işıqlı, nurlu-nurlu körpələrimiz dünyaya gəlir. Özləri ilə yer üzünə işıq gətirir, sevinc, fərəh, xoşbəxtlik gətirir, böyüklərə böyük-böyük dərdləri unutdururlar.

Babalarımız, nənələrimiz, analarımız uşaqlara tarixən gələcək kimi baxıblar bir evin, bir ocağın gələcəyi, bir nəslin gələcəyi və nəhayət, bir millətin gələcəyi kimi. Bəşəriyyət yer üzünə hər bir yeni həyat, yeni nəfəs, yeni ruh kimi gələn körpələrə tarixin bütün dövrlərində özünün gələcəyi kimi baxıb. Bu boyda Yer kürəsini onların balaca ürəklərinə, balaca əllərinə etibar edərək dünya səhnəsini tərk ediblər. Belə deyək ki, dünyanı uşaqlara verib gediblər.

Dili dualı Azərbaycan anaları bütün ömürləri boyu bu balaca fidanların başına pərvanə kimi dolanıb, onların varlığı eşqinə min bir nağıl, bayatı, layla, oxşama, bilməcə, gülməcə, tapmaca yaradıblar. Vətən, millət təəssüblü atalarımız övladlarını elə tərbiyə etməyə çalışıblar ki, birinci növbədə ana Vətən üçün gərəkli olsunlar, dar gündə doğma torpağın keşiyini çəkib onu yağı düşmənlərdən qorusunlar, Vətənin başından bir tük belə əskik olmasına imkan verməsinlər. Və min illər boyu müqəddəs yurd yerlərimiz ana südü kimi saf və təmiz olan bu öyüd-nəsihətlərin işığında qorunub, nəsildən-nəsilə ötürülərək bu günümüzə qədər gətirilib-çıxarılıb. Bu müqəddəs öyüd-nəsihətlər fidan-fidan körpələrimizi sonradan beyrəklərə, qazanlara, babəklərə, koroğlulara..çevrilib. Onların dəli nərələrinin vahiməsi min illər boyu yağıları ulu türk yurdlarına yaxın düşməyə qoymayıb.

Təəssüflər olsun ki, babalardan ərmağan bu min illik ənənələrimiz, demək olar ki, bütün keçən əsr boyu böyük deformasiyalara uğrayıb. Müqəddəs ocaq olaraq göz bəbəyi kimi qorunmuş torpaqlarımız parça-parça edilərək yadelli işğalçıların əlinə keçib. Get-gedə Azərbaycanın sərhədləri daralıb, Dərbəndi,

Təbrizi, Borçalını, İrəvanı, Göyçəni, Zəngəzuru, Ağbabanı, nəhayət, keçən əsrin axırlarında tarixlər şahidi Qarabağı itirmişik. Hazırkı Ermənistan ərazisindən 200 mindən çox, Azərbaycanın daxilindən isə bir milyona qədər insanımız, yurddaşımız ev-eşiyini, isti ocağını itirərək didərgin salınıb. Böyüklərlə barəbər, körpələrimiz də qaçqın-köçkün həyatı yaşamağa məhkum edilib. Və təbii ki, hazırda insan haqları, uşaq hüquqları və s. kimi yüksək terminləri əldə bayraq edən sivil dünyanın, min adlı beynəlxalq təşkilatların gözləri qarşısında onların ən ali haqq və hüquqları pozulub. Ancaq 1988-ci ildən bəri davam edən erməni təcavüzü nəticəsində yurd-yuvasını, öz yurdunda, öz evində azad yaşamaq haqqını itirmiş körpələrimizin hüquqlarının bərpası istiqamətində heç bir ciddi və səmərəli addım atılmayıb.

Artıq yuxarıda qeyd etdiyimiz kimi, uşaq hüquqları ilə bağlı Avropada, Qərbdə bir çox hüquqi sənədlər qəbul edilib. İlk belə sənəd olan **“UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYA”** Beynəlxalq Qadınlar Fedarasiyasının təçəbbüsü ilə hələ 1949-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilsə də, bu gün dünyanın bir çox yerlərində uşaq hüquqlarının pozulması hallarına mütəmadi olaraq rast gəlirik. Belə hallar son illərdə Ermənistan təcavüzünə məruz qalmış Azərbaycanda da baş vermişdir. Ancaq özünün Qərbə inteqrasiya iddialarını ortaya qoymuş, demokratik inkişaf yolunu, hüquqi dövlət prinsiplərini özünün prioriteti elan etmiş Azərbaycana qarşı erməni təcavüzü və bu təcavüz nəticəsində çoxsaylı insan hüquq və azadlıqlarının, o cümlədən uşaq hüquqlarının pozulması hallarına indiyədək həmin Qərbdə göz yumulur, müvafiq beynəlxalq təşkilatlar tərəfindən adekvat reaksiya verilmir. Təcavüzkar Ermənistan artıq 26 ildir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik 7 rayonu işğal altında saxlayır. Bu tarixi Azərbaycan torpaqlarının işğalı zamanı bütün yerli əhaliyə, eləcə də uşaqlara heç bir aman verilməmişdir. Təkcə bir faktı demək kifayətdir ki, Qarabağ müharibəsi illərində 1000-dən çox uşaq şəhid olub, nə qədər günahsız körpə Xocalıda, işgal edilən digər şəhər və kəndlərimizdə erməni quldur ordusu tərəfindən əsir götürülüb, işgəncələrə məruz qalıb. Bu körpələrə qarşı törədilmiş vəhşilik və qəddarlıq faktlarına faşistlərin əməllərində də rast gəlmək mümkün deyil. Onlara qarşı tarixdə görünməmiş zorakılıq və işgəncələr tətbiq edilmişdir. Bu cür faktlar hətta erməni yazarlarının, o cümlədən bədnam Zori Balayanın kitablarında açıq-aşkar əks olunub. Əslində özünün humanizmi ilə seçilməli olan yazıçı belə erməniliyindən qalmayaraq bu türk cocuqlarına qarşı törədilmiş vəhşiliyi, qəddarlığı təqdir edir və kitabında bu əməllərə haqq qazandırır.

Bu gün iyunun 1-də bütün dünyada Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd edilsə də, Azərbaycan uşaqlarının böyük bir qismi Dağlıq Qarabag və ətraf

rayonlardan köçkün düşmüş uşaqları özlərinin bu bayramını doğma evlərindən uzaqda, çadır şəhərciklərində, yaxud yeni məskunlaşdıqları ərazilərdə qeyd etməli olurlar. Bu isə hüquq və azadlıqlar haqqında ağızdolusu danışmağa alışmış bütün dünya üçün yalnız və yalnız utanc gətirir.

Ancaq **"UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYA"** ya qoşulmuş 189 ölkədən biri olan Azərbaycan öz ərazisində yaşayan bütün uşaqların hüquqlarının qorunması, onların öz bayramlarını sevinc və fərəh içində keçirməsi üçün hər çür şərait yaradır. Bu bayramı ölkəmizdə millətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün körpələr eyni şəraitdə qeyd edirlər. Neçə illərdən bəri çadır şəhərciklərində yaşamış, normal təhsil almaq, səhiyyə xidməti ilə təmin olunmaq imkanından məhrum olmuş uşaqlar artıq dövlətimizin qayğısı sayəsində bu bəladan xilas olublar. İndi onlar ailələri ilə birlikdə köçkün vətəndaşlar üçün salınmış yeni qəsəbələrdə yaşayır, normal təhsil alır, lazımi tibbi xidmət görür, digər hüquqlardan bəhrələnirlər.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə uşaqlara xüsusi qayğı və diqqətlə yanaşmışdır. Onu mütəmadi olaraq uşaqların iştirakı ilə keçirilən ayri-ayri bayram və tədbirlərdə görmək olardı. Bu tədbirlərdə o, mütləq uşaqlara yanaşar, onlarla söhbət edər, söylədikləri şeir nümunələrini maraqla dinləyər, körpələri həvəsləndirərdi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da ulu öndərin məhz uşaqlara olan qayğısından, diqqətindən irəli gəlirdi.

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyev uşaqlarımızın inkişafı, müasir bilik və vərdişlərə yiyələnmələri üçün hər çür şərait yaradır. Onlar üçün gözəl uşaq bağcaları, məktəblər tikilib istifadəyə verilir, dövlət başçısı onların açılışında iştirak edir, uşaqlara özünün xeyirxah tövsiyələrini verir. Prezidentin istedadlı uşaqların seçilərək dövlət qayğısı ilə əhatə olunması barədə sərancamları da hamının yadındadır. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan uşaqlarına qayğısını isə ayrıca qeyd etmək yerinə düşərdi. Onu daim ölkənin ayrı-ayrı yerlərində, şəhərlərimizdə, kəndlərimizdə uşaqların yanında görürük. Fondun dəstəyi ilə uşaqlar və gənclər arasında musiqi müsabiqələrinin keçirilməsi onların istedadlarının üzə çıxarılmasında mühüm addımdır.

1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə bütün korpələrimizi təbrik edir, onlara daha xoşbəxt həyat arzulayırıq. Çünki onlar hər cür xoşbəxtliyə layiqdirlər.

## B Ö L M Ə III:

## Uşaqlar mənsub olduqları ölkənin gələcəyi, işıqlı sabahıdırlar.

**Bu gün fidan balaların bayramıdır. Harada uşaq varsa, orada səmimiyyət, sevinc, ümid böyük olur. Uşaqsız ömür qaranlıq, həyat isə mənasızdır. Ta bineyi-qədimdən bu günə kimi uşağa həmişə məhəbbətlə yanaşılır, onu sevgi və qaygı ilə əhatə etməyə çalışırlar. Əlbəttə, müəyyən istisnalar da var. Bəzən ayri-seçkilik, uşağa ögey münasibət, onun qədrini bilməmək, vaxtsız qəzalar, qəfil qadalar, müharibələr, terrorlar, münaqişələr və bir sıra xoşagəlməz olaylar körpə fidanların sevincini əlindən alır, onları ata-ana nəvazişindən ayrı salır. Bəzən də nadanlıq ucbatından uşaqlar öz doğma valideynlərinin himayəsindən məhrum olurlar.**

Bu günə kimi qəbul edə bilmədiyimiz və Azərbaycanın milli adət-ənənəsinə, mentalitetinə uyğun gəlməyən uşaq evlərinin mövcudluğu ürəyimizi agrıdır. Dünyanın bütün var-dövlətini, qaygısını, təbəssümünü, hətta balacaların çox sevdiyi oyuncaqların hamısını bu məkanlara doldurmaq mümkün olsa belə, onların gözlərindəki nisgili silmək müsküldür. Yəqin fikir veribsiz ki, uşaq evlərində tərbiyə alan bu günahsızların baxışlarından daim əskik olmayan bir xiffət duyulur.

Ötən əsrin 50-ci illərindən bütün dünya 1 iyunu Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd edir. Uşaqların hüquqlarının qorunması indi dünya əhəmiyyətli bir məsələdir. Fərəhli haldır ki, Azərbaycanda uşaqların müdafiəsi mexanizminin təşkili ilə bağlı bir sıra irəliləyişlər var. Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilən Azərbaycan Respublikasında dövlət uşaq müəssislərindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qaygı Dövlət Proqramı (2006-2015-ci illər)" böyük əhəmiyyətə malikdir. Bu proqramdan irəli gələn vəzifələrin icrası istiqamətində bir sıra uğurlu addımlar atılıb. Eləcə də Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan olunması ölkəmizdə uşaqların hüquq və azadlıqlarının qorunması daha da möhkəmlənmiş, bu istiqamətdə birgə səylərin artırılması üçün geniş imkanlar açılmışdır. Xüsusilə də Heydər Əliyev Fondunun prezidenti UNESCO-nun və İSESCO-nun xoşməraml səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyəti böyük önəm daşıyır. Azərbaycanda uşaqların müdafiəsi sistemində müəyyən edilmiş islahatların yerinə yetirilməsində aidiyyəti təşkilatlar, qurumlar, nazirliklər də öz dəstəklərini əsirgəmirlər.

2009-cu ilin oktyabrında Bakıda “Gülüstan” sarayında Azərbaycanda Uşaq ilinə və BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 20 illiyinə həsr olunmuş uşaqların müdafiəsi islahatı üzrə ikigünlük milli konfrans keçirildi. Həmin konfransda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxışında çox vacib mətləblərə toxundu. Sivilizasiya və mədəniyyətlərin toqquşması, eləcə də dünyada baş verən hərbi münaqişələr, texnogen faciələr, iqlim dəyişməsi, xəstəliklər və digər problemlər uşaqların taleyindən izsiz keçmir. Belə olan halda onlar təkcə fiziki cəhətdən deyil, mənəvi baxımdan da şikəst olurlar. Bəzən də ata-anasından, ailə mühitindən ayrı düşən uşaqlar müəyyən mənəvi dəyərlərdən də təcrid olunurlar. Azərbaycan xalqının özünəməxsus gözəl adətlərindən biri də övlada xüsusi diqqət və məhəbbətlə yanaşmasıdır.  Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz nitqində məhz bu mənəvi dəyərlərin qüdrətindən söz açdı: “Bu gün Azərbaycan qadını, demək olar ki, ölkəmizin həyatının bütün sahələrində çox fəaldır və həm dövlət qurumlarında, həm də özəl sektorda bir sıra nailiyyətlər əldə edibdir. Bu gün Azərbaycan qadını öz sözünü deyir və öz mövqeyini nümayiş etdirir. Bununla yanaşı, mən əminəm ki, hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm. Əlbəttə, hər bir valideyn arzulayır ki, onun uşağı saglam, bilikli, savadlı, xoşbəxt böyüsün və bunun üçün əlindən gələni edir”.



Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın söylədiyi kimi, heç də bütün uşaqların hamısı valideyn himayəsində yaşamır. Təəssüf ki, bu qayğıdan məhrum olanlar və dövlət tərbiyə müəssələrində böyüyənlər də var. Qədərin bu ağır zərbələrinə tuş gəlmiş uşaqlar o qədər zərif və açiz olurlar ki, onlar heç zaman talelərini özləri təkbaşına düzgün müəyyən edə bilməzlər. Bu balacaların böyüklərdən, onların qaygısından, başlıcası isə məhəbbətlərindən asıllılığı çoxdur.

Bu baxımdan Mehriban xanım Əliyeva haqlı olaraq həyacan təbili çalır ki, bu cür uşaqların həyatı və gələcəyi bizim hamımızı narahat etməli, hamımızı düşündürməlidir. Məhz bu baxımdan Heydər Əliyev Fondunun uşaqlarla bağlı məsələlərə xüsusi diqqət yetirməsi, həmin sahələrə qaygısını daha da artırması diqqət çəkir. Bu Fond, demək olar ki, yarandığı gündən valideyn himayəsindən məhrum olmuş, dövlət müəssələrində böyüyən uşaqların taleyini daim diqqət mərkəzində saxlayır. Təsadüfi deyil ki, ata-ana himayəsindən məhrum olan uşaqlar bu gün Mehriban xanım Əliyevaya mənəvi ana kimi baxırlar. Bu da səbəbsiz deyil. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində Heydər Əliyev fondu tərəfindən 40-dan çox dövlət müəssisəsi əsaslı təmir edilərək avadanlıqlarla təchiz olunub. Tez-tez uşaqların qonağı olan, vaxt tapan kimi onlara baş çəkən Mehriban xanım Əliyeva çalışır ki, uşaqlarla həmişə ünsiyyət qursun. Onların problemləri ilə maraqlanır, asudə vaxtlarının səmərəli keçirilməsi üçün diqqət və məhəbbət göstərir. Fondun təşəbbüsü ilə bu gün Azərbaycanda ən yüksək standartlara cavab verən uşaq evləri və internat məktəbləri fəaliyyət göstərir. Əlbəttə, belə evlərin keyfiyyətli tikilməsi, orada peşəkar insanların çalışması, uşaqlara diqqətin artırılması çox yaxşı haldır. Amma yenə də narahatlıq doğuran səbəb var. Son illər bu müəssisələrdə uşaqların sayı artmaqdadır. Mehriban xanım Əliyeva söyləyir: "Heydər Əliyev Fondu bu sahədə beynəlxalq təşkilatlarla, ilk növbədə BMT-nin Uşaq Fondu ilə çox uğurlu əməkdaşlıq qurur və bir sıra proqramlar həyata keçirir. Dövlət tərəfindən bu sahədə çox vacib addımlar atılır və gələcəkdə görülən işlər də planlaşdırılıb.

Əgər biz söyləyiriksə ki, uşaqlar bizim gələcəyimiz, Azərbaycanın sabahıdır, onların problemlərinə də biganə qalmamalıyiq. Bizim məhəbbətimizə, qaygımıza ehtiyacı olan kimsəsiz körpələr unudulmamalıdır. Uşaqların dövlət uşaq müəssisələrindən ailələrinə verilməsi səmərəli şəkildə həyata keçirilməlidir.

Elə bir əlamətdar gün, bayram olmaz ki, Mehriban xanım Əliyeva uşaqlarla görüşüb, onlarla müəyyən məclislərdə iştirak etməsin. UNESCO və İSESCO-nun xoşməramlı səfiri uşaqlarla bağlı həyata keçirilən bütün layihələrin, demək olar ki, təşəbbüsçüsü və dəstəkçisidir. Talessemiyadan- qan xəstəliyindən əziyyət çəkən uşaqları himayəyə götürərək bu istiqamətdə Azərbaycanda könüllü donorluq inkişaf etdirildi. Məhz Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində talassemiya və hemofiliya kimi irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqların qanla təminatı yaxşılaşdırıldı. Şəkər xəstəliyindən əziyyət çəkən uşaqlar da Azərbaycanda ilk dəfə olaraq məhz Mehriban xanım Əliyevanın himayəsinə alındı. Ölkənin birinci xanımının xeyriyyəçilik fəaliyyəti çoxdur, amma ən önəmlisi uşaqlara göstərdiyi xüsusi diqqət və qayğıdır. Təsadüfi deyil ki, uşaqları böyük məhəbbətlə sevən, daim onların yanında olmaga can atan Mehriban xanım

Əliyevanın "Uşaqlar bizim gələcəyimizdir, gəlin onların problemlərinə biganə qalmayaq" çağırışındakı səmimiyyət təsirsiz olmur. Çünki uşaqlıq dövrü insanın ən yaddaqalan və unudulmaz anlarıdır. Məhz bu illərdə insanın gələcək taleyinin əsası qoyulur. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın kimsəsizlərin himayədarı olması isə heç bir zaman bu uşaqların yaddaşından silinməyəcək. Vaxt yetəcək ki, onlar həyatın sınaqlarından, tənhalığın nisgilindən, xəstəliklərin agrı-acısından, fəsadlarından qurtularaq cəmiyyətdə öz layiqli yerlərini tutacaqlar. Nə vaxtsa ötənlərə boylananda isə onlara mərhəmət göstərən, qollarından tutan, yıxılmağa qoymayan, yaşadan xeyirxah insanları tez-tez xatırlayacaqlar. Yaxşılıq heç vaxt unudulmur. Uşaqlıq isə tam başqa bir alımdir. Məhəbbət gördüyün, nəvaziş duyduğun, lətafətini, səmimiyyətini hiss etdiyin insan sənə hmıdan əziz və doğma olur. Bu gün Azərbaycanda yüzlərlə, uşağa, sözün həqiqi mənasında, mənəvi analıq edən Mehriban xanım Əliyeva gör nəçəsinin taleyində əbədi şölələnəcək çıraq yandırır.

Mehriban xanım Əliyevanın xeyirxahlıq missiyası həmişə vaxtında və lazımi məqamında yerinə yetirilir. Bu böyüklükdən isə hamıya pay düşür. İndi Azərbaycanın birinci xanımının xeyirxahlıq missiyası sərhədlər aşır. Bu məhəbbətin mayasındakı bəşərilik çox mətləblərdən xəbər verir. Heydər Əliyev Fondunun təşəbbüsündə olduğu layihələrin nəticəsində uzaq Pakistanda qızlar üçün məktəb açılır, Misirdə tikilən təhsil ocağına ölkəmizin birinci xanımının şərəfli ismi verilir. Bu fəxarətli duyğuların yaratdığı sevincin əks-sədası, xoş sorağı hələ çox eşidiləcək. Fərəhimiz köksümüzə sığmır: həqiqətən də, halımıza yanan var. Bu qayğının içindəki sonsuzluq, mərhəmət adama böyük ruh verir.

Təəssüf ki, bu fərəhli duyğularımıza bədnam qonşularımız daim qanqaraldıcı hadisələrlə, terrorla təcavüz edirlər. 2011-ci il martın 8-də Ağdamda 9 yaşlı Farizin ermənilər tərəfindən qətlə yetirilməsi bir daha təsdiqlədi ki, qonşularımız insanlığa sığmayan vəhşilikləri davam etdirməklə analoqu olmayan zorakılıqlar törətməkdə israrlıdırlar. Onların törətdiyi soyqırımlar nəticəsində yüzlərlə uşaq valideyn himayəsindən məhrum olmuş, çoxunun həyatına son qoyulmuş, yaşamaq hüquqları belə pozulmuşdur. İndi dünya Uşaqların Beynəlxalq Müdafiə Gününü təntənə ilə qeyd edir. Belə bir məqamda körpələrə qarşı təcavüzə, zorakılığa, terrora yol verən, bunu özünün ali məqsədi kimi həyata keçirən erməni quldurlarının qeyri-insani hərəkətlərinə qətiyyətlə son qoyulmalıdır. Bütün bəşəriyyətin xoş gələcəyi körpələrdən asılıdır. Təsadüfi deyil ki, Viktor Hüqo da qətiyyətlə deyirdi: "Dünyada ən böyük himni körpə qığıltısıdır". Elə buna görə də bəşəriyyət irqindən, dinindən, millətindən asılı olmayaraq uşaqları qorumalıdır.

## B Ö L M Ə IV:

## ÖMRÜMÜZÜN SEVİNC PAYI

  

**Körpə qığıltısını ən gözəl himn, ana laylasını ən əziz nəğmə adlandıranlar heç bir ritorika və pafosa yol verməyiblər. Uşaq insan ömrünün bəzəyi, ailənin səadəti, xalqın sabahıdır. "Uşaqlar bizim gələcəyimizdir" deyimi də çox səslənmiş, olsa belə, həmişə, bütün zamanlarda aktual və mənalıdır.**

Azərbaycan ailəsində körpə xüsusi önəm kəsb edir. Xalqımız uşaq sevən xalqdır. Adi sözlərlə desək, Azərbaycan evində, Azərbaycan ailəsində ən yaxşı nə varsa hamısı uşaqlara yönəldilir, gələcəklə bağlı bütün arzu-niyyətlər uşaqlara məhəbbətdən qaynaqlanır. Biz uşaqları sevir, bəsləyir, qoruyuruq.

Körpə sahibi olmaq Azərbaycan ailəsinin ən böyük arzusudur. Körpə dəyəri heç bir var-dövlətlə ölçülməyən nemətdir, əvəzolunmaz varlıqdır. Təsadüfi deyil ki, bu gün hər cavan Azərbaycan ailəsində ən azı iki, üç uşaq, yaxud buna istək və arzu var.

Elə uşaqlara istəyin, sevginin təzahürüdür ki, hər il 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi geniş tədbirlərlə qeyd olunur. Bu baxımdan da ildən-ilə genişlənən, daha da vüsət alan tədbirlər təqdirəlaqiq və bəyənilәndir. Bu ildə iyin ayının 1-də belə tədbirlərin yüksək səviyyədə keçirilməsinə start verildi. Respublikamızın hər bir təhsil ocaqlarında, məktəb və gimnaziyalarda, bağca və məktəbəqədər müəssisələrdə, uşaq evlərində, muzey və kitabxanalarda bir sözlə təhsil ocaqlarında silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin keçirilməsində F.Köçərli adına Respublika Uşaq Kitabxanası həmişə

fəal iştirak etmişdir. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə əlaqədar hər il olduğu kimi, bu il də tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planın geniş və maraqlı olması üçün kitabxanaçı əlindən gələn koməkliyi göstərir. Bunun üçün kitabxanaçı öncədən məktəb və bağçalarla əlaqə saxlamalı, uşaqları ktabxanada keçirilən hər bir tədbirə dəvət etməlidir. Beləki, yuxarıda qeyd etdiyimiz kimi, uşaqlar bizim gələcək nəslimiz, gələcək davamçılarımızdır. Bax, elə ona görə də belə tədbirlərin hazırlanması üçün əlimizdən gələn hər bir şeyi etmək hər birimizin borcudur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də kitab və rəsm sərgisidir. Kitab və rəsm sərgisini təşkil etməkdə məqsəd uşaqları ilk növbədə uşaq kitabları ilə tanış etmək və onların rəsm sərgilərini, əl işlərini nümayiş etdirməkdən ibarətdir. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Dünyanı verək uşaqlara”, “Uşaqlar bizim gələcəyimizdir”, “Sirli-sehirli nağıllar”, “Azərbaycan yurdum mənim”, Sənin maraq dünyan”, “Kitablarda mən hələ baxıram şəkillərə”, “Çox oxuyan, çox bilər”, Biri var idi, biri yox idi”, “Göydən üç alama düşdü”, “Xoşbəxt uşaqlar”, “Ömrümüzün sevinc payı”, “Onlar bizim gələcəyimizdir” və s. İndi isə “Uşaqsız dünyanın sabahı yoxdur, uşaq dünyasının sevinci çoxdur” adlı kitab sərgisinin nümunəsini sizlərə təqdim edirik.

**Başlıq:**

1. **“Uşaqsız dünyanın sabahı yoxdur, uşaq dünyasının sevinci çoxdur”**
2. **Uşaqlar haqqında deyilmiş sitatlar, müdrik sözlər, atalar sözləri.**
3. **Uşaq kitablarının nümayişi.**
4. **Uşaq hüquqları ilə bağlı kitabların nümayişi.**
5. **Rəsm və əl işlərinin sərgisi.**
6. **Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.**
7. **Şeir parçası.**
   **Ömrümüzü, günümüzü**
   **Uşaq təbəssümü bəzər,**
   **Uşaqsız ev, uşaqsız el**
   **Susuz dəyirmana bənzər.**

**Sitatlar:**

1. **Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır.**

**Heydər Əliyev**
**Ulu öndər**

2. Uşaqlar bizin sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xususi qayğı, xüsusi diqqət göstərilibdir.

Heydər Əliyev
Ulu öndər

3. Uşaqlara qayğı hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

Heydər Əliyev
Ulu öndər

4. Uşaq da meyvə tək yetişən olar,
Əsəbi bərkiyər, ət-qana dolar.
Elə ki, sümüklə dəri bərkiyər,
Qafada beyninin yeri bərkiyər,
O uşaq kamala can ata-ata,
Ağlına ağıllı söz bata-bata,
Təlim məktəbinə çapar atını,
Arzu şərbətinin duyar dadını.

Nizami Gəncəvi

5. Ana istəyir ki, onun övladı
Aslan kimi qorxmaz, pürvüqar olsun.
Ətəkdən yapışan, əl açan deyil,
Özgəyə əl tutan, havadar olsun.

C.Həlimşah.

5. Elə düşünməyin ki, siz uşağın tərbiyəsilə yalnız onunla danışarkən və ya öyrədərkən, ya da ona əmr edərkən məşğul olursunuz. Siz onu hər an, hətta evdə olmadığınız vaxtda tərbiyə edirsiniz.

A. S. Makarenko.

6. Uşaq üçün hər bir oyun ciddi xarakter daşıyır, çünki o, oynayarkən yaşayır. O yalnız oynayarkən öyrənir, ruhən və cismən böyüyür.

A.V. Lunaçarski.

7.Uşaqlar bizim sabahkı hakimlərimizdir, bizim dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir.

M.Qorki.

8. Övladlarınızı dövrünüz üçün deyil, onların dövrü üçün yetişdirin.

**Hz.Əli ( Ə.S)**

9. **Uşaq , cənnət nemətlərindən biridir.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

10. **Uşaq qoxusu, cənnət qoxularındandır.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

11. **Hər ağacın bir meyvəsi vardır, sevginin meyvəsi də uşaqlardır.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

12. **Uşaqlarınızı çox opün, hər öpüşdə cənnətdəki dərəcəniz yüksəlir.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

13. **Uşaqsız bir evin bərəkəti olmaz.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

14. **Uşaqlarınıza yaxşı baxın! Onları gözəl tərbiyə edin.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

15. **Uşağı gözəl tərbiyə etmək və ona gözəl bir ad qoymaq, övladın ata üzərindəki haqlarındandır.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

16. **Övladınıza qulluq edin, necə ki, ata-ananızın sizdə haqqı varsa, övladınızın da sizdə haqqı vardır.**

**Məhəmməd Peyğəmbər (S.Ə.S)**

17. **Pis övlad altıncı barmaq kimidir, kəsərsən ağrıyar, kəsməzsən eybəcər göstərər.**

**Azərbaycan atalar sözü**

18. **Ata-ananın övlada məhəbbəti təbii, övladın ata-anaya məhəbbəti isə iradidir.**

**Nəsrəddin Tusi**

19. **Uşağın göz yaşını silməyən onunla birgə ağlar.**

**Afrika atalar sözü**

**20. Döyməklə uşağı yalnız korlamaq olar.**

**Aristotel**

**21. Yer üzərində uşaq qığıltısından təntənəli himn yoxdur.**

**V.M.Hüqo**

**“Dünyani verək uşaqlara” adlı kitab sərgisi:**




























YADDAŞIN İNKİŞAFI
TESTLƏR
3 - 4
yaşlı
uşaqlar üçün


ŞƏKİLLƏRLƏ
NAĞIL
YAZMAĞI
ÖYRƏNƏK
Əziz valideynlər!
İlk dəfə olaraq uşaqlarınızın
sərbəst şəkildə öz fikrini ifadə
etməyini öyrədən kitab
5
NAĞIL


KURİKULUM PROQRAMINA UYĞUNLAŞDIRILIB
SİNİFDƏN XARİC
OXU
2
Oxudum
Anladım
Qiymətləndirdim
TÜRKİYƏ
100000
şagird arasında


"MƏN VƏ MƏNİM DÜNYAM"
GÜVƏNCİN
NAĞILLARI
Tomris
ana


"MƏN VƏ MƏNİM DÜNYAM"
GÜVƏNCİN
NAĞILLARI
Yeddi gəlin
dağı


Peyğəmbərimizin dostları
BALACA
Nehir Aydın
Gökduman
KÖLƏ
Zeyd İbn
Haris


MəKtəb
Kitabxanası
DÜNYA UŞAQ
ƏDƏBİYYATINDAN
SEÇMƏLƏR
Günəşdən
gələn pay


LOĞMAN


MəKtəb
Kitabxanası
Cəlil Məmmədquluzadə
Əbdürrəhim bəy Haqverdiyev
Hekayələr


Lovğa Maral
AZYAŞLILAR ÜÇÜN


Məktəb Kitabxanası
CƏLİL MƏMMƏDQULUZADƏ
Quzu


"MƏN VƏ MƏNİM DÜNYAM"
Güvəncin nağılları
Zərdüşt


ƏLƏMDAR QULUZADƏ
DİLOTU


ƏLƏMDAR QULUZADƏ
ƏTİRŞAH ƏTRİ


ƏLƏMDAR QULUZADƏ
NAVALÇA

# Uşaq hüquqları ilə bağlı sərgi


















**Rəsm sərgisi:**













Sabahımız olan uşaqlara qayğı və diqqət hər bir dövlətin siyasətində önəmli yer tutur, çünki hər bir xalqın, millətin gələcəyi uşaqlardır. Azərbaycan dövləti də daim uşaqların sağlam böyüməsi, yaxud yaxşı oxuması və hərtərəfli inkişafının qayğısına qalmışdır. Biz də F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq öhdəmizə düşən hər bir qayğını gələcək nəslimizin davamçıları olan uşaqlardan əsirgəmirik. Beləki, F. Köçərli adına Respublika Uşaq Kitabxanasında müntəzəm olaraq bir çox tədbirlər keçirilir ki, bu tədbirlərdən də uşaqlar daha çox yararlanır. Kitabxanamızda tez-tez uşaqların əl işlərinin sərgisini, rəsm sərgilərini, kitab sərgilərini, nagıl otagında keçirilən nağıl saatlarını, səhərcikləri, ucadan oxu və viktorinaları misal göstərmək olar. Hər il olduğu kimi 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə təşkil olunan tədbirlər uşaqların daim yaddaşında qalır və onların kitabxanaya maragını artırır. Əsas təbliğat formalarından bir neçəsini misal göstərmək olar. Məsələn F.Köçərli adına Respublika Uşaq kitabxanasının əməkdaşları tez-tez bagça və məktəbəqədər müəssələrdə, orta məktəblərdə olur, məktəbin aşagı və yuxarı sinif şagirlərini kitabxanamıza ekskursiyaya dəvət edirlər. Burada kitabxanaçı və metodistlərimiz uşaqları kitabxanamızla tanış edir, kitabxananın iş fəaliyyəti ilə bağlı məlumatları verir, onlara göstərilən qayğı və diqqətdən söz açırlar. Kitabxanamıza daxil olan latın dilində nəfis tərtibatla nəşr olunan kiatablarla, xarici dildə olan ədəbiyyatla uşaqları yaxından tanış edir, kitabxanaya yazılış qaydalarını onlara başa salırlar. Belə tədbirlərdən biri də şair və yazıçılarla keçirilən görüşlərdir. Kitabxanamızda uşaq yazıçı və şairlərindən İlyas Tapdıq, Oktay Rza, Zahid Xəlil, Ələmdar Quluzadə, Qəşəm İsabəyli, Sevinc Nuruqızı, Reyhan Yusifqızı, Gülzar İbrahimova və başqaları ilə keçirilən görüşlərdən uşaqlar məmnun qalır və onlarla daha yaxından ünsiyyət qurmağa çalışırlar. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən “Sevimli şair və yazıçılarımızla görüş “ adlı tədbirin nümunəsini veririk.

Tədbiri F.Köçərli adına Respublika Uşaq Kitabxanasının rəhbəri Şəhla Qənbərova açıq elan edir.

**Qoy həmişə Günəş olsun,**

**Qoy həmişə, anam olsun,**

**Mən də olum həmişə!...**

Əziz qonaqlar və körpə fidanlar! Sizi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında görməyimizə çox şadıq. Dünyanın hər yerində körpəyə, uşağa məhəbbət, qayğı göstərilir. Bəşəriyyət yaranandan uşaq ailəyə sevinc, səadət bəxş edən ən əziz varlıq hesab olunub. Çünki ailə üçün uşaqdan əziz nemət, onların məsum sifətlərindən gözəl heç nə ola bilməz. Biz hər il İyunun 1-ni Uşaqların Beynəlxalq müdafiəsi günü kimi qeyd edirik. Belə bir tarix dünyanı XX əsrdə ikinci dəfə sarsıdan II Cahan müharibəsindən sonra yaranıb. Bu cahan savaşı 100 minlərlə körpəni aglar qoydu, hərbi təcavüzlər nəticəsində saysız-hesabsız uşaq ölüm saçan güllələrin qurbanına çevrildi. Bu faciəli anlar ilk öncə anaları narahat etdiyindən, məhz Qadınlar cəmiyyətlərinin yekdil səssi ilə Uşaqların Beynəlxalq müdafiəsi günü qəbul edildi. 1949-cu il iyun ayının 1-i uşaqların bayramı kimi qeyd olunur. Artıq neçə illərdir ki, 1 iyun bütün dünyada əsl bayram kimi qeyd edilir. Bu əlamətdar gündə gözəl-göyçək, gül balalar valideynlərinin qaygısını, məhəbbətini daha artıq hiss edir, fərəhlənirlər. Amma bu sevinci bütün uşaqlara aid etmək olarmı? Bilmirəm...Onu bilirəm ki, ata-ana məhəbbətindən, qaygısından məhrum olanlar da var. Ata-ana nəvazişinə, sevgisinə yad olan bu uşaqların günahı nədir ki? Bax bunu da bilmirəm. Onu bilirəm ki, uşaq tək bir ailənin deyil, bütün cəmiyyətindir. Bugünkü körpə sabahın həkimi, hüquqşünası, müəllimi, alimi və sonda kitabxanaçısıdır. Bayramınız mübarək əziz uşaqlar!

Söz görkəmli şair və yazıçılara verilir. Hər bir şair və yazıçı uşaqlar üçün yazdığı şeirlərdən oxuyur, kitablarını uşaqlara təqdim edirlər. Tədbirin sonunda kitabxanamızın nəfis tərtibatda nəşr etdiyi “Göy qurşağı” jurnalı uşaqlara təqdim olunur.

Cəmiyyətin həssas və kövrək zümrəsi kimi həmişə yüksək qayğı və nəvazişlə əhatə olunan uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi zərurəti müasir dövrdə hər bir dövlətin üzərinə uşaq hüquqlarının müdafiəsi ilə bağlı yeni vəzifələr qoyur.

İnsan hüquqlarını demokratik inkişafın ayrılmaz hissəsi, bəşəriyyətin ədalətli cəmiyyətə qovuşmaq idealının ali təzahürü, vətəndaş cəmiyyətinin yetkinliyinin əsas meyarı kimi qəbul edən hər dövlət sağlam gələcəyi naminə körpələrin yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır. Dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlara uşaq hüquqlarına etibarlı təminat mexanizmlərinin yaradılması isə, ilk növbədə onların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyyəsinin, təhsilinin, sosial müdafiəsinin, saglamlığının yüksək səviyyədə təşkilini nəzərdə tutur.

Uşaq Hüquqları haqqında, Azərbaycan Respublikasının Qanunu 1998-ci il mayın 19-da qəbul olunub. Uşaqların bu qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına çatmamış hər bir şəxsə aid edilir. Bu Qanunun bəzi maddələrini uşaqların nəzərinə çatdırmaq üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında "Hüquqlarımızı öyrənək" adlı anket-sorgu hazırlanır. Anket sorgusu orta və böyük yaş qrup uşaqlar üçün nəzərdə tutulur.



Sualları sizə təqdim edirik:

☺1. Sual? Uşaq Hüquqları Konvensiyası neçənci ildə qəbul olunub?

Cavab: Uşaq Hüquqları Konvensiyası 1989-cu il noyabrın 20-də BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunub.

☺2. Sual? Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu neçənci ildə qəbul olunub?

Cavab: Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının qanunu 1998-ci il may ayının 19 qəbul olunub.

☺3. Sual? Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri neçə yaşına çatmamış uşaqlara aid edilir?

Cavab: 18 yaşına çatmamış uşaqlara bu qanunda nəzərdə tutulmuş hüquq və vəzifələr aid edilir.

☺4. Sual? Uşaq Hüquqları Konvensiyasının neçə maddəsi var?

☺Cavab: Uşaq Hüquqları Konvensiyası 54 maddədən ibarətdir. Bütün hüquqlar 4 geniş kateqoriyaya bölünür.

*İnkişaf hüquqları

*Müdafiə hüquqları

*İştirak hüquqları

*Yaşamaq hüquqları

☺5. Uşaq Hüquqları Konvensiyasına neçə dövlət daxildir?

Cavab:192

☺6. Sual?Uşaqların hüquq bərabərliyi nədən ibarətdir?

Cavab: Bütün uşaqlar bərabər hüquqa malikdirlər. Sosial və əmlak vəziyyətindən, saglamlığından, irqi və milli mənsubiyyətdən, dilindən, təhsilindən, dinindən , siyasi baxışlarından bir sözlə yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı seçkiliyə məruz qala bilməzlər.

☺7. Sual? Hansı dövlətlər Uşaq Hüquqları Konvensiyasına daxil deyil?

Cavab: ABŞ, Somali

☺7.Uşaq Hüquqları Komitəsi harada yerləşir?

Cavab:Cenevrədə

Dünyada ata-anaya, cəmiyyətə və dövlətə uşaq qədər xoşbəxtlik, sevinc gətirən heç bir şey yoxdur. Uşaq dünyanın ən böyük səadəti, Tanrının verdiyi nemətdir. Müstəqil Azərbaycanda uşaqıların daha yaxşı oxuması, sağlam vətəndaş kimi böyüməsi üçün geniş imkanlar yaranmışdır. Ölkəmiz uşaq hüquqlarına dair beynəlxalq normativ aktlara qoşulmuş, bu sahədə milli qanunvericilik formalaşmışdır. Uşaqların hüquq və azadlıqlarının qorunması, Qərb standartlarına uyğun təhsil və tərbiyəsi üçün hüquqi zəmin yaranmış, bütün bunlar reallıqda öz əksini tapmışdır.

1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür. Bu gün Azərbaycan uşaqlarının şənlik, xoşbəxtlik və gələcəyə ümid günüdür. Bu bayramı F. Köçərli

adına Respublika Uşaq Kitabxanası hər il olduğu kimi, möhtəşəm şəkildə qeyd edir. Uşaq bayramı münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası bayram əhval-ruhiyyəsi ilə bəzədilir. Kitabxana şarlar, gül dəstələri, əl şləri sərgiləri ilə bəzədilir. Oxu zalı, nağıl otagında bir çox stendlər, sərgilər qoyulur. Kitabxanamızın nağıl otagında təşkil olunan tədbirlərdən biri də "Biri vardı, biri yoxdu..."adlı nağıl saatıdır. Nağıl saatı əsasən kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulur. Valideyinləri ilə tədbirə gələn uşaqlar ilk əvvəl kitabxana ilə tanış olur, sonra isə 1 iyun Beynəlxalq uşaqları Müdafiə Günü ilə əlaqədar olaraq hazırlanmış "Uşaqlar bizim gələcəyimizdir" adlı video-carxa tamaşa edirlər.




**Kitabxanaçı  Rafiq Yusifoğlunun "Uşaq" şeiri ilə tədbiri açıq elan edir.**

**Korpələri incidəndə**
**Xeyir-şər qarışıq düşür.**
**Uşaq görəndə adamın**
**Çöhrəsinə işıq düşür.**

**Ağacların budağında**
**Açılan çiçək-körpədi.**
**Köksümüzdə gecə-gündüz**
**Döyünən ürək körpədi.**

**Cocuq sevginin bəhrəsi,**
**Cocuq həyatın duzudu.**
**Cocuq yolumuz üstündə**
**Parlayan dan ulduzudu.**

**Ömrümüzü, günümüzü**
**Uşaq təbəssümü bəzər,**
**Uşaqsız ev, uşaqsız el**
**Susuz dəyirmana bənzər.**

Uşaqların maraqla gözlədiyi an yaxınlaşdı. Kitabxanaçı Nəriman Süleymanovun "Ana quşun yuxusu" adlı hekayəsini danışır.

Biri vardı, biri yoxdu, bir qaranquş vardı. Qaranquş bir evin eyvanında yuva qurmuşdu. Ovuc boyda, qəşəng bir yuva. Içərisində də ətcəbalalar vardı. Gündüzlər yuvada ancaq balalar olardı. Çünki analarıı səhər tezdən uçub gedər, göldən-çəməndən balaları üçün yem daşıyardı. Hər gəlib gedəndə də dincəlməz, tezcə qayıdardı. Bir gün ətcəbalalar civildəşə-civildəşə analarına dedilər:

-Anacan, sən yoruldun, axı. Bir oturub dincəlsənə!

Ana qaranquş gətirdiyi yemindən balalarına verə-verə;

-Eyb etməz. Siz məndən nigaran qalmayın,-dedi və balaları üçün yem dalınca uçdu.

Günlər beləcə keçirdi. Sarı ətcəbalalar tüklənib böyüyür, üçmaq üçün qanat gətirirdilər. Yuva get-gedə onlara darısqallıq edirdi.

Həmişə bir-birinin qoynuna girib yatan balalar indi nə qədər sıxlaşsalar da yenə də yuvaya sığmırdılar. Ana qaranquş gah bu yana çəkilir, gah da o yanda dayanır, balalarının rahat yuxulamasına çalışırdı.

Qəribə idi ki, gecələr yuva elə bil böyüyür, balaların yeri genişlənirdi. Bu necə iş idi?

Gəlin, bu sirri öyrənək,-deyə balalar sözü bir yerə qoydular.

O gecə hələ axşamdan yuxuları gəlsə də balalar yatmadılar. Çimir gələndə ayaqları ilə gözlərinin altını, üstünü çırmaqlayırdılar ki, yuxuları qaçsın. Yenə də bu yuxu onlara güc gəldi. Nə vaxt yatdıqlarını bilmədilər. Bir də gözlərini açanda gördülər səhərə yaxındır. Təzə-təzə dan sökülür. Hava təzə-təzə işlıqlanır. Bəs anaları hanı?...Tezcə yan-yörəyə boylandılar.

Ana qaranquş teleqraf xəttinin üstə yuxulamışdı...

Tədbirin sonunda kitabxanaçı Nəriman Süleymanovun hekayəsində ana bala məhəbbətini geniş şəkildə uşaqlara izah etməyə çalışır.

Nağıl otağında kiçik yaşlı uşaqlar üçün sevimli yazıçısı, professor Zahid Xəlilin "Yumru Yumaq və Qumru" adlı nağılını kitabxanaçı oxuyur və sonra isə hekayə haqqında uşaqlara test tapşırıqları verir.

Gəlin indi "Yumru Yumaq və Qumru" adlı nağıla qulaq asaq.

Bir Yumru Yumaq var idi və yaman qorxaqdı. Buna görə də həmişə diyirlənə-diyirlənə gedirdi ki, onu görən olmasın. Bir dəfə Yumru Yumaq yenə də diyirlənib

gedirdi. Birdən qabağına bir Yumru Yumruq çıxdı. Yumru Yumruq güclü və qəzəbli idi.

-Ehey, Yumru Yumaq, hara belə? Məgər qorxmursan ki, yolda səni əzişdirib palaza döndərərlər?

Yumaq dedi: -Qorxuram! Amma getməliyəm. Axı yumru-yumru qayaların arasında Qumru adlı bir qız mənim yolumu gözləyir. O məndən corab toxuyub xonça düzəldəcək və Yuxarı Yurddakı igid oğlana göndərəcəkdir.

-Bir halda ki, belədir, onda qoy mən də səninlə gedim. Yumru Yumruq da Yumru Yumaga qoşulub getməyə başladı.

Əvvəl qabaqlarına bir dovşan çıxdı. Dovşan da yumaq kimi yumru idi:-Ay Yumru Yumaq, ay Yumru Yumruq hara belə?Məgər qorxmursunuz ki, yolda yalquzaq sizi parçalayar?

Yumru Yumruq qəzəbləndi. Bir az da yumrulanıb qaşqabağını tokdü:-Yalquzagın nəyindən qorxuruq? Qoy o bizdən qorxsun!

Dovşan Yumru Yumruğun nə qədər güclü və qorxmaz olduğunu indi gördü və dedi:-Qoyun mən də sizinlə gedim!

-Lap yaxşı oldu deyə Yumru Yumaq atılıb düşdü. Amma atılıb düşəndə az qaldı ki, çözələnsin.

-Bir az yavaş, əgər çözələnib açılsan, səni kim yumaq kimi sarıyacaq, deyə Yumru Yumaq qəzəbləndi.

-Daha tullanmaram.

Onlar yollarına davam etdilər.

Birdən qabaqlarına vahiməli yekə bir Yumru Yumaq çıxdı. Bu elə yekə Yumru Yumaq idi ki, hətta Yumru Yumruğun özü də bir az qorxan kimi oldu. Birdən yekə Yumru Yumaq onların qarşısında dayandı və açıldı. Baxıb gördülər ki, bu, ayıdır.

Ayı onlara çatmaq üçün özünü yumrulayıb dağdan diyirlədibmiş.

Ay Yumru Yumaq, Yumru Yumruq, Yumru dovşan, hara belə? Məgər qorxmursunuz ki, yalquzaq qabağınızı kəsib sizi parçalayar?

Yumru Yumaq dovşan hamıdan qabaq dilləndi:-Canavarın nəyindən qorxacağıq, qoy onun özü bizdən qorxsun?!

-Ayı fikirləşdi:-“Doğrudan da bunlar canavardan niyə qorxmalı idilər”.

Dedi:-Qoyun mən də sizinlə gedim .

-Lap yaxşı!

Yumru Yumaq ayı qabaqda, Yumru Yumaq dovşan onun dalınca, Yumru Yumağın özü ortada, Yumru Yumruq isə arxada yola düşdülər.

Uzaqdan onları yalquzaq canavar gördü. Amma ayının qorxusundan onlara yaxınlaşa bilmədi. Gedib bütün yalquzaqları topladı və əhvalatı onlara danışdı.

Canavarlar sözü bir yerə qoyub Yumru Yumaqları axtarmağa başladılar.

Yumru Yumağın dəstəsi gəlib Qumrunun oturduğu yumru-yumru qayalara yetişdi. Qumru Yumru yumağı təzəcə əlinə götürüb ondan corab toxumaq istəyirdi ki, bir də gördü canavar gəlir. Dostlarını xəbərdar etdi. Yumru yumruq o saat düyünlənib qəzəblə qışqırdı:-Qoy gəlsinlər, hamısının başını əzəcəyəm!

Yumru Yumaq ayı donquldandı:-Deyəsən bunların ölümü çatıb.

Təkcə Yumru Yumaq dovşan tir-tir əsdi və dedi:

-Dostlar, onlar çox, biz az. Mənim bir təklifim var. Gəlin hamımız yumrulanıb yerimizdə sakitcə dayanaq. Belə dursaq yumru qayalardan seçilmirik.

Bu söz hamısının ağlına batdı. Qayaların yanında yumrulanıb sakitcə durdular. Canavarlar nə qədər axtardılarsa yumru yumaqları tapa bilmədilər. Əvəzində onları aldatdığı üçün həmin yalquzağı parça-parça etdilər.

İndi isə uşaqlara test tapşırığı paylanılır. Bu test tapşırığını paylamaqda məqsədimiz uşaqların bilik və bacarıqlarını yoxlamaqdan ibarətdir. Sualları düzgün cavablandıran uşaq F.Köçərli adına Respublika Uşaq Kitabxanasının müdriyyəti tərəfindən mükafatlandırılır.

1. **Hansı adın qarşısında Yumru sözü olmamalıdır?**
   **A) Yumru Yumaq**
   **B) Yumru Yumruq**
   **C) Yumru canavar**
2. **Hansı cərgədə “U” səsi daha çoxdur?**
   **A) Yumru dovşan**
   **B) Yumru Yumaq**
   **C) Yumru Qumru**
3. **Hansı söz dovşanın xarakterinə uyğundur?**

**A) İgid**
**B) Cəsur**
**C) Qorxaq**

4. **Yumru Yumruq obrazı haqqında hansı fikir doğru deyil?**
   **A) Qəzəblidir**
   **B) Güclüdür**
   **C) Qorxaqdır**
5. **Hansı cümlə hekayədə yoxdur?**
   **A) Bir Yumru yumaq var idi**
   **B) Yumru Yumruq güclü və qəzəbli idi**
   **C) Dovşan canavarları hədələdi**
6. **Qarşısı boş buraxılan sözlərə müvafiq gələnini yaz.**
   **Qəzəbli-mehriban,**
   **Xeyirxah-bədxah,**
   **Uzaq**
   **yekə**
   **qorxaq**
7. **Hansı söz kimin xasiyyətinə uyğun gəlir? Həmin sözləri birləşdir.**

| | |
|---|---|
| **Yumru Yumruq** | **qorxaq** |
| **Canavar** | **cəsur** |
| **Dovşan** | **yırtıcı** |
| **Qumru** | **xeyirxah** |
| **Yumru Yumaq** | **vefalı** |

8. **Hekayənin əsas qəhrəmanı kimi hesab etmək olar?**
   **A) Yumru Yumruğu**
   **B) Qumrunu**
   **C) Yumru Yumağı**
9. **Aşağıdakılardan hansı yumru deyil?**
   **A) Top**
   **B) Şar**
   **C) Cərpələng**

Uşaqlarla təmasda olanda çox vaxt fransız yazıçısı Viktor Hüqonun bir fikri yadımıza düşür: “Dünyanın ən həzin musiqisi körpə qığıltısıdır”. Fəqət, böyük müdrikliklə deyilmiş bu kəlam belə, uşaqların mənəvi dünyamızdakı yerini tam mahiyyəti ilə ifadə etməkdə acizdir. Onların hər birimiz üçün nə demək olduğunu sözün qüdrəti ilə canlandırmaq həqiqətən də çətindir. Cəmiyyətin saglam özəyi,

gələcəyi, köməyə ehtiyac duyan kövrək zümrəsi olan uşaqlar həyatımızın mənası, ailəmizin sevinci, fərəhidir. Hər bir evin ən böyük ziynəti, dəyərli sərvəti onlardır.

Kitabxanada 1 iyun Uşaqların Beynəlxalq Müdafiə günü ilə əlaqədar kitabxanaçı oxucularla Ç. Dikkensin "Oliver Tvistin məcaraları" kitabının təhlilini edə bilər. Bildiyimiz kimi Oliver Tvistin macəraları adlı bu roman məşhur ingilis yazıçısı Çarlz Dikkensin yaradıcılığında böyük yer tutur və öz dərin ictimai məzmunu, həyat həqiqətini düzgün göstərməsi və bədii vüsəti etibarilə bütün dünya ədəbiyyatında geniş şöhrət qazanmışdır. Ç. Dikkensin qələmə aldığı bu əsərdə gələcəyimiz olan uşaqların hüquqlarının əllərindən alınmasından, onların həyatda üzləşdiyi çətinliklərdən söhbət açılır. Kiçik yaşlarından kimsəsiz qalan Oliver yad adamların qapılarını dolaşaraq sonda Londona gəlib çıxır. Təsadüf onu azyaşlı cinayətkarlardan ibarət bir dəstəyə gətirir. Həyatın dibindəki bu amansız mühitdə Oliver hər cür sınaqlardan keçməli olur. Saysız-hesabsız macəralar sonda yeniyetməni xeyirxah insanlarla üzləşdirir. Çarlz Dikkensin "Oliver Tvistin macəraları" kitabı müəllifin sosial romanlarından biridir. O, ədalətli olaraq dünya ədəbiyyatının şedevrləri siyahısına daxil edilib.Sonda uşaqlar Ç. Dikkensin qələmə aldığı kiçik yaşda tərkedilen Oliver Twistin macəraları filminə tamaşa edə bilərlər.







1 iyun Uşaqların Beynəlxalq Müdafiə günü ilə əlaqədar olaraq F. Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Bu tədbirə iki ay qabaqcadan hazırlaşmaq lazım gəlir. İlk öncə tədbirin bədii hissəsində çıxış edən qonaqlara dəvətnamələr paylanılır. Ən sevimli uşaq yazarları tədbirə dəvət alır. İkinci hissədə isə uşaqlar üçün yazılmış şeir və mahnılar səslənir. Hekayə və nağıllardan səhnəciklər hazırlanıb göstərilir.

**“Uşaqlar bizim gələcəyimiz, uşaqlar bizim sabahımızdır” adlı ədəbi-gecənin ssenarisini nümunə üçün veririk.**




**Aparıcılar səhnəyə daxil olur:**

**I Aparıcı:** Gəlin etiraf edək ki, korpələrin ılıq, saf nəzərləri, duzlu-məzəli sözləri, hətta şıltaqlıqları belə hər birimizdə xoş ovqat yaradır, üzümüzə sevinc və təbəssüm qonur, qəlbimiz sevgi və məhəbbətlə döyünür. Bizi rahat buraxmayan, yoran iş və məişət qayğılarını, həlli vacib problemləri ani olaraq unudub korpələri əzizləmək, söhbətə cəlb etmək, könüllərində yer tapmaq istəyirik. Balacaların xoş aurası, pozitiv enerjisi bizi çox vaxt əsəb gərginliyindən, mənfi psixiloji ovqatdan uzaqlaşdırır. Daxilən kövrəkləşir, böyük diqqət və nəvaziş göstərdiyimiz, qayğısını çəkdiyimiz körpələrə xoş dəqiqələr, sevincli anlar bəxş etmək istəyi ilə yaşayırıq. Zaman keçdikcə bir həqiqəti dərk edirik ki, bu fani dünyada həyatımızın əsas mənası ailə üçün layiqli övlad, dövlət üçün ləyaqətli vətəndaş, cəmiyyət üçün kamil şəxsiyyət yetişdirməkdir.

**(Oxucular Gülzar İbrahimovanın “Mən balaca deyiləm) şeirini söyləyirlər.**

Səhər tezdən dururam,
Əl-üzümü yuyuram
O qədər böyümüşəm,
10-a qədər sayıram!

Kuklamı çimdirirəm,
Qəşəng geyindirirəm
O qədər böyüyəm ki,
Bağçaya da gedirəm!

Ad günümdə hamı mənə,
Qəşəng hədiyyə alacaq
Deməyin mənə balaca,
Mənim beş yaşım olacaq!

Böyüyəm mən, böyüyəm
Görün necə, böyüyəm
Sevinirəm ay uşaqlar,
Kuklamdan da böyüyəm!

**II Aparıcı:** Bu ülvi və saf məram müdrik xalqımızın milli düşüncəsində, dünyagörüşündə tarixən özünə möhkəm yer tapıb. Ev-eşik, ailə sahibi olmaq, layiqli övlad yetişdirmək hər bir azərbaycanlının daxılından qaynaqlanan təbii, nəcib arzudur. İnsan öz həyatını mənalandırmaq, məqsədlərinə doğru inamla irəliləmək, cəmiyyətə, dövlətə fayda vermək üçün, ilk növbədə, ailəyə, uşağa ehtiyac duyur. Onların sosial-mənəvi tələbatlarını təmin etmək, müstəqil həyata hazırlamaq, cəmiyyətdə yerini tapmasına yardımçı olmaq hər bir valideynin ən böyük arzusudur. Elə bu arzu ilə hər bir azərbaycanlı uşaqlarının sabahı ugrunda səylə çalışır, min bir zəhmətə qatlaşır. Böyüdüb boya-başa çatdırdığı övladlarının müstəqil həyatdakı ilk uğurlarını görəndə isə qəlbi fərəh hissi ilə döyünür, çəkdiyi zəhmətin hədər getmədiyinə sevinir.

Musiqisi Hökumə Nəcəfovaya, sözləri Xanımana Əlibəyliyə aid “Günəş olaram mən də”... mahnısı səslənir.

Oxucular səhnəyə daxil olub Ələmdar Quluzadənin “Dünyaya uşaq gəlir” adlı şeirini soyləyirlər.

I oxucu: Ətirli, gül-çiçəkdi,

Yazdı, bahardı uşaq.

Dodaqda bal kimidir,

Budaqda bardı uşaq.

Günəşin zərrələri,

Yazın yağışıdır o.

Gözümüzün işığı,

Ərzin naxışıdır o.

Uşaq tək əzizlənən

Silahlar uşaq deyil.

Dünya ilə oynama,

Dünya oyuncaq deyil.

Əsək uşağın üstdə,

Kəsək yolunu şərin.

Uşaq səsindən gözəl

Nəyi var ki, bəşərin.

Kini, küdurəti yox,

Vicdanı dümag gəlir.

Dünya ayağa qalxsın,

Dünyaya uşaq gəlir!

Uşaq gəlmir bu qoca

Dünyaya daş atmağa,

Uşaq gəlir bu qoca

Dünyanı yaşatmağa.

**I Aparıcı:** Əziz qonaqlar hər birimiz bilirik ki, analar övladlarının böyüyüb boya-başa çatmasında nə qədər əziyyət çəkirlər. Analar gecələr körpələrinin beşiyinin başını kəsdirib həzin-həzin layla deyir, ən xoş arzularını balalarının qulağına pıçıldayırlar. Övladlarımızın böyüməsində ana laylalarından gözəl mahnı olarmı?

Uşaq yuxudan oyanandan sonra analarımız oxşama deyir, körpəsini oxşayır, arzularını bildirir.

**Layla dedim yatasan,**

**Gül yastığa batasan.**

**Gül yastığın içində**

**Şirin yuxu tapasan.**

**Layla dedim gündə mən,**

**Kölgədə mən, gündə mən.**

**İldə qurban bir olar,**

**Sənə qurban gündə mən.**

**Dağın maralı**

**Gözün qaralı,**

**Dünyanın malı**

**Bu balama qurban.**

Ümumiyyətlə, hər bir cəmiyyətin ən kövrək, həssas təbəqəsi olan körpələrə cəmiyyətin hər bir üzvünün qayğısı, sevgisi lazımdır. İmkan daxilində hamı uşaqlara nəvaziş və qayğı göstərməli, onların cəmiyyət üçün layiqli insan kimi yetişməsində əlindən gələni əsirgəməməlidir.

**II Aparıcı:** Bu gün biz əminliklə deyə bilərik ki, uşaqlarımızın gələcəyi etibarlı əllərdədir. Və onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün Azərbaycan dövləti bütün imkan və şəraiti yaratmışdır. Ümummilli lider Heydər Əliyev deyirdi ki, "Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın böyük binasını qurursunuz". Gəlin hamılıqla bu binanın saglam və dayanıqlı olması üçün səylərimizi birləşdirək.

Oxucular səhnəyə daxil olub Ələmdar Quluzadənin “**Gəlin Uşaqlara oxşayaq”** adlı şeirini söyləyirlər.

**Üfüqlər səmada oyanan səhər,**

**Dan yeri şəfəqə boyanan səhər.**

**Uşaqlar sabaha boylanan səhər**

**Gəlin uşaqlara oxşayaq bir az.**

**Günəş kainatın çıraq dünyası,**

**Çiçəklər, ləçəklər budaq dünyası.**

**Uşaqlar dünyanın uşaq dünyası**

**Gəlin uşaqlara oxşayaq bir az.**

**Gözəli köksümdə dil açan dilək,**

**Dəcəli sinəmdə döyünən ürək.**

**Gəlin uşaqlarala əl-ələ verək**

**Gəlin uşaqlara oxşayaq bir az.**

**Uşaq tək sevinək ocaq görəndə,**

**Qanadlı quş olaq budaq görəndə**

**Harda olur-olsun, uşaq görəndə**

**Gəlin uşaqlara oxşayaq bir az.**

**Dodaqlar nəğmənin təzəsin deyə,**

**Gülüşlər dünyanı bəzəsin deyə,**

**Uşaqlar bizlərə bənzəsin deyə**

**Gəlin uşaqlara oxşayaq bir az.**

**I Aparıcı:** Əziz qonaqlar! Gəlin elə edək ki, uşaqlarımızın çöhrəsindən gülüş, sevinc heç zaman əskik olmasın. 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə gül balalarımızı səmimi qəlbdən təbrik edir, uşaqlar üçün çalışan hər bir təşkilata uğurlar diləyirik.

*Tədbir Azərbaycan Respublikasının Himni ilə başa çatır.*

## Ə D Ə B İ Y Y A T S İ Y A H I S I:

## DÖVRÜ MƏTBUAT:


1. **X. Flora.** 1 iyun - Uşaqların Beynəlxalq Müdafiə Günüdür / F. Xəlilzadə // Yaddaş. - 2007. - 31 may. - S.5. .
2. **İ. İsmayıl.** Uєaqlar gələcəyimizdir [Текст] : 1 iyun-Uşaqları Beynəlxalq Müdafiə günü / İ. İbrahimov // Respublika. - 2008. - 1 iyun. - S. 5.
3. **1 iyun -** Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Planet. - 2007. - 22 may. - S.1,2. .
4. **1 iyun Uşaqların** Beynəlxalq Müdafiə Günüdür // Azərbaycan. - 2007. - 1 iyun. - S.11. .
5. **H. Hicran.** Ölkəmizdə hər bir uşaq dövlət qayğısı ilə əhatə olunur : 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / H. Hüseynova // Xalq qəzeti. - 2007. - 1 iyun. - S.10.
6. **B. Oqtay.** Ömrümüzün mənası olan uşaqlardan qayğımızı əsirgəməyək : 1 iyun Beynəlxalq Uşaqların müdafiəsi günü / O. Bayramov // Xalq qəzeti. - 2006. - 1 iyun. - S.4.
7. **X. Flora.** Ömrümüzün əlvan çiçəkləri : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günüdür / F. Xəlilzadə // Azərbaycan. - 2010. - 1 iyun. - **N 116**. - S. 6.
8. **A. Nurlana.** Uşaqlara dövlət qayğısı : 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günüdür / N. Axundzadə // Təhsil problemləri. - 2010. - 16-23 may. - **N 33/34**. - S. 5.
9. **S. Elmira.** Uşaqlar üçün yararlı Azərbaycan naminə çalışaq : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / E. Süleymanova // Respublika. - 2010. - 1 iyun. - **N 115**. - S. 7.
10. **H. Hicran.** Azərbaycanda uşaq problemlərinin həlli dövlət strategiyasının prioritet istiqamətlərindəndir : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / H. Hüseynova // Xalq qəzeti. - 2010. - 1 iyun. - **N 116**. - S. 5.
11. **Ə. Paşa.** Azərbaycan uşaqları dövlətin və cəmiyyətin qayğısı ilə əhatə olunub : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / P. Əmircanov // Xalq qəzeti. - 2010. - 1 iyun. - **N 116**. - S. 5.
12. **Q. Zümrüd.** Uşaq gülsə, dünya gülər... : 1 İyun Uşaqları Beynəlxalq

Müdafiə Günüdür / Z. Qurbanqızı // Respublika. - 2010. - 2 iyun. - **N 116**. - S. 6.
13. **Zayralıqızı. B.** Vətənə layiq ruhda : 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / B. Zayralqızı // Mədəni həyat. - 2012. - **№ 6**.
14. **K. Samirə.** Uşaqların müdafiəsi daim diqqət mərkəzindədir : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü / S. Kərimova // Azərbaycan müəllimi. - 2010. - 4 iyun. - **N 21**. - S. 2.
15. **M. Elgün.** Gələcəyimiz olan uşaqları qoruyaq : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / E. Mənsimov // Azərbaycan. - 2013. - 2 iyun. - **№ 119**. - S. 6.
16. **Ə. Paşa.** Dünyanı qoruyaq uşaqlar üçün... : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / P. Əmircanov // Xalq qəzeti. - 2013. - 1 iyun. - **№ 119**. - S. 5.
17. **Ə. Piralı.** Uşaqların hüquqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / P. Əliyev // Azərbaycan. - 2013. - 1 iyun. - **№ 118**. - S. 10.
18. **H. Hicran.** Uşaq hüquqlarının müdafiəsi dövlətin prioritet istiqamətlərindəndir : 1iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / H. Hüseynova // Respublika. - 2014. - 1 iyun. - **№ 114**. - S. 2.
19. **M. Nilufər.** 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / N. Mustafaqızı // İki sahil. - 2014. - 31 may. - **№ 95**. - S. 20.
20. **S. Flora.** Ömrümüzün sevinc payı : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / F. Sadıqlı // Azərbaycan. - 2014. - 1 iyun. - **№ 114**. - S. 8.
21. **A. Aida.** Bir ovuc təbəssüm, bir dünya işıq : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / A. Aysa // Xalq qəzeti. - 2014. - 1 iyun. - **№ 114**. - S. 5.

**Kitabların siyahısı:**

1. **Dilsuz. Tomris ana. B.:200,-10 s.**
2. **Dilsuz. Yeddi gəlin dağı. B:. 2008,-10 s.**
3. **Ə. Quluzadə. “Dilotu”, B.: “Ozan”, 2009.-80 s.**
4. **Ə. Quluzadə. “Ətirşah ətri”, B.:, “Ozan”, 2010.-80 s.**
5. **Ə. Quluzadə. Navalça. B.: “Şuşa”, 2012.-80 s.**
6. **Z. Xəlil. Yumru Yumaq və Qumru. B.: 2011.-20 s.**

**Redaktor:** **Şəhla Qəmbərova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**